# AZƏRBAYCANIN QƏDİM VƏ ORTA ƏSR SİLAHLARI

*KİTAB-ALBOM*





Milli Azərbaycan Tarixi Muzeyi

# AZƏRBAYCANIN QƏDİM VƏ ORTA ƏSR SİLAHLARI

(MATM Arxeologiya fondunun materialları əsasında)

KİTAB-ALBOM

BAKI – 2018

Elmi redaktor: akademik Nailə Vəlixanlı

Koordinator: t.ü.f.d Nasir Quluzadə

Müəlliflər: t.ü.f.d. Səbuhi Əhmədov
elmi işçi Emin Məmmədov
kiçik elmi işçi Nurəngiz Qarayeva

Foto: Nurlan Zeynallı

Azərbaycanın qədim və orta əsr silahları (MATM Arxeologiya fondunun materialları əsasında). Kitab-albom. Bakı, 2018,- 32 səh.

*Kitab-albom Azərbaycan Silahlı Qüvvələrinin yaranmasının 100-cü ildönümünə həsr olunmuşdur.*

*Azərbaycan Silahlı Qüvvələrinin yaradılmasının 100-cü ildönümünə həsr olunmuş kitab-albomda Milli Azərbaycan Tarixi Muzeyinin arxeoloji kolleksiyasında qorunan bəzi silah nümunələri haqqında müfəssəl məlumat verilmişdir. Bu nümunələrin bir qismi XX əsrin 20-80-ci illərində Muzeyin nəzdində Şəki, Qazax, Qəbələ və Mingəçevir bölgələrinə, eləcə də Xəzər dənizi hövzəsinə təşkil edilmiş arxeoloji ekspedisiyaların tapıntılarıdır. Bundan əlavə həmin silahlar arasında Azərbaycanın Tədqiq və Tətəbbö Cəmiyyətinin, AMEA-nın Tarix İnstitutunun və digər elmi-tədqiqat mərkəzlərinin göstərilən illərdə həyata keçirdiyi arxeoloji axtarışlar zamanı tapılmış nümunələr də yer almışdır.*

*Kitab-albomda Daşkəsən, Lənkəran, Qazax, Naxçıvan və Azərbaycanın digər bölgələrində təsadüfi tapılmış silahlar haqqında da məlumat verilmişdir. Bu silahlar hücum və müdafiə təyinatlı olmaqla, daş, metal, sümük və gil tərkiblidirlər. Onlardan qədim Daş dövründən orta əsrlərədək böyük bir zaman kəsiyində istifadə edilmişdir.*

*Kitab-albom tarix, hərb, arxeologiya və digər sahələrdə çalışan mütəxəssislər və hərb tarixi ilə maraqlanan oxucular üçün nəzərdə tutulmuşdur.*

ISBN: 978-99-52-473-48-3

*© Milli Azərbaycan Tarix Muzeyi, 2018*

# GİRİŞ

## I.Milli Azərbaycan Tarixi Muzeyinin arxeoloji silahlar kolleksiyası

Milli Azərbaycan Tarixi Muzeyi (bundan sonra-Muzey) tarixi-mədəni irsimizə aid nümunələrin tədqiqi ilə yanaşı mühafizəsini və təbliğini də həyata keçirən ən böyük elmi tədqiqat və mədəni-maarif mərkəzlərindən biridir. İnamla demək olar ki, yarandığı ilk gündən Muzey maddi mədəni irsin öyrənilməsi, qorunması və təbliği sahəsində çox böyük uğurlar qazanmış, hətta bu istiqamətdəki fəaliyyətində bir çox "ilk"lərə də imza atmışdır. Məhz həmin uğurların və "ilk"lərin nəticəsidir ki, bu gün Muzeyin fondlarında ən qədim dövrdən bu günədək böyük zaman kəsiyinə aid 300 mindən artıq tarixi və elmi əhəmiyyətli maddi mədəniyyət nümunəsi toplanmışdır. Azərbaycanın tarixi-mədəni irsinin öyrənilməsində və təbliğində əvəzsiz rol oynayan həmin nümunələr arasında silahların da özünəməxsus payı vardır.

Haqqında bəhs etdiyimiz bu silahlar mənşə etibarilə arxeoloji və təsadüfi tapıntılardan ibarətdir. Arxeoloji silahların bir hissəsi Muzeyin nəzdində təşkil edilmiş ekspedisiyaların ayrı-ayrı illərdə Azərbaycanın müxtəlif bölgələrində apardıqları gərgin axtarışların məhsuludur. Daha dəqiq desək, arxoloji kolleksiyalara daxil olan silahların bir qismi XX əsrin 20-ci illərində Gəncə və Nuxa qəzalarında, Qəbələ mahalında, 30-50-ci illərində Mingəçevir və Gəncə-Qazax bölgələrində, eləcə də 60-80-ci illərində Xəzər akvatoriyasında muzey əməkdaşlarının bilavasitə rəhbərliyi ilə aparılmış arxeoloji qazıntıların tapıntılarıdır.

Arxeoloji silahların başqa hissəsini isə digər elmi-tədqiqat müəssisələrinin tapıntıları təşkil edir. Belə ki, Muzey ilə yanaşı, XX əsrin 20-ci illərindən başlayaraq ölkəmizdə Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti (1923-1929), Azərbaycan Dövlət Elmi-Tədqiqat İnstitutu (1929-1932), SSRİ EA Azərbaycan filialı Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutu (1936-1940), əvvəlcə SSRİ EA Azərbaycan filialı, sonralar Azərbaycan SSR EA Tarix İnstitutu və onun Arxeologiya və Etnoqrafiya sektoru (1940-1992) 50-yə qədər abidədə genişmiqyaslı arxeoloji qazıntılar aparmışlar. Həmin qazıntılar zamanı tapılmış çoxsaylı maddi mədəniyyət nümunələri arasında silah nümunələri də vardır ki, onlar da daimi mühafizə üçün Muzeyə təhvil verilmişdir.

Bunlarla yanaşı, Muzeyin arxeoloji kolleksiyalarındakı silahların bir hissəsi Tiflisdəki Qafqaz Muzeyi və Xanlar Diyarşünaslıq Muzeyindən daxil olmuşdur. Muzeyin fondlarının Qafqaz Muzeyinin kolleksiyaları hesabına zənginləşdirilməsi istiqamətində böyük alim Davud bəy Şərifovun fəaliyyətini, əzmkarlığını və fədakarlığını xüsusilə qeyd etmək lazımdır. Belə ki, 1925-ci ildə D.Şərifovun bilavasitə səyləri nəticəsində Azərbaycan Dövlət Muzeyinə Qafqaz Muzeyindən Redkin lager, Şuşa, Anenfeld, Çomaqlı, Zəylik, Yenikənd və Bakıda aparılan qazıntılar nəticəsində aşkar olunmuş, əksəriyyəti son tunc və ilk dəmir dövrünə aid maddi mədəniyyət nümunələri daxil olmuşdur. Həmin nümunələr arasında silahlar xüsusi paya malikdir.

1955-ci ildə Xanlar Diyarşünaslıq Muzeyindən daimi mühafizə üçün qəbul edilmiş silah nümunələri isə XX əsrin 30-cu illərində alman əsilli arxeoloq Yakob Hummelin Azərbaycanın əsasən Gəncə-Göygöl ərazisində apardığı qazıntıların nəticələridir. Həmin silah nümunələri dəvəgözü ox ucluqlarından, tunc bıçaqdan, yabadan, qalxan umbonundan və digər maraqlı tapıntılardan ibarətdir.

Azərbaycan Respublikası ərazisində arxeoloji qazıntılar zamanı aşkar olunmuş silah nümunələri ilə yanaşı, müxtəlif bölgələrdən Muzeyə təqdim olunmuş çoxlu sayda təsadüfi tapıntılar da vardır. Belə silah nümunələri Dolanlar, Ballıca, Daşkəsən, Lovain, Uzuntəpə,

Molla-Məhərrəmli, Lənkəran, Zəylik, Qazaxbəyli, Xaçbulaq, Püstəqasım, Hacıkənd, Çovdar, Məşrif, Naxçıvan, Şimali Qafqaz və digər kolleksiyalara daxildir.

Muzeyin arxeoloji kolleksiyalarında mühafizə olunan silahlar tərkibinə görə də fərqlənir. Onlar əsasən tuncdan, dəmirdən, sümükdən və müxtəlif daş növlərindən, xüsusilə dəvəgözü və çaxmaqdaşından düzəldilmişdir. Lakin bir ədəd Mingəçevirdən tapılmış nizə ucluğu gildən hazırlanmışdır. Həmin nümunə hazırda ekspozisiyada nümayiş olunur.

Haqqında bəhs etdiyimiz silahlar əsasən hücum və müdafiə təyinatlı olmaqla iki qrupa ayrılırlar. Hücüm silahlarına qılınclar, xəncərlər, bıçaqlar, baltalar, döyüş yabaları, toppuzlar, nizə, ox və cida ucluqları aiddir. Müdafiə silahlarına isə dəbilqələr, zirehlər, piləklər və s. daxildir. Ümumilikdə, muzeyin arxeoloji kolleksiyasında olan silahların dövrünə gəldikdə, bu nümunələr neolitdən son orta əsrlərə qədər böyük xronoloji çərçivəni təmsil edirlər. Onların bu zaman kəsiyində forma baxımından müəyyən dəyişikliklərdən keçərək necə təkamül etmələrini aydın izləmək mümkündür.

Yuxarıda haqqında bəhs edilən arxeoloji silahlar təmsil etdikləri dövrün ictimai quruluşu, münasibətləri və ən əsası isə hərb işi haqqında dolğun təsəvvür yaratmaqla yanaşı, aid olduqları qədim cəmiyyətlərin sənətkarlığını, əlaqələrini və bədii-estetik zövqünü özündə də əks etdirən etibarlı əşyavi mənbələrdir.

## II. Muzeyin arxeoloji silahları tarixi mənbə kimi

Silah siyasi, ictimai, bədii inkişafın müxtəlif tərəflərini, həmçinin cəmiyyətin ümumi inkişaf səviyyəsini özündə birləşdirərək xalqın tarixi-mədəni irsinin vacib elementlərindən biri hesab edilir. Muzey eksponatı kimi silahlar tarixi, mədəni və rəmzi dəyərə malikdirlər. Dövrün elmi-texniki nailiyyətlərini və xalqın çoxşaxəli mədəniyyətini cəmləşdirərək silah bəzən həmin xalqın rəmzlərindən biri kimi qəbul olunur. Silahlar muzeylərdə nümayiş olunarkən dövrün ideoloji, elmi, bədii-estetik tələbləri nəzərə alınmaqla, həm də mədəniyyətin bir fenomeni kimi tamaşaçılara təqdim edilir. Eyni zamanda, silah tarixi rekonstruksiya, tədris-tərbiyə və turizm proqramlarının əhəmiyyətli vasitəsidir.

Silahın muzey ekspozisiyasının vacib obyektinə "çevrilməsi" prosesində onun qorunub-saxlanması, tarixi-mədəni, elmi, estetik, tədris-tərbiyə xüsusiyyətlərinin müəyyən olunması, müasir mədəniyyətə fəal daxil edilməsi ilə bağlı bir sıra məsələlərin həllinə ehtiyac yaranır. Bunların bir qismi rekonstruksiya və bərpa ilə birbaşa bağlıdır.

Müasir elmi bərpa dağılmış, korlanmış tarixi eksponatın ilkin formada restavrasiyası və sonrakı qorunması məqsədilə konservasiyasını nəzərdə tutur. Eksponatın dəqiq tarixi bərpasının həyata keçirilməsi üçün bu eksponatın zamanında necə olmasını öyrənmək, onun kənar təsirlər sayəsində məruz qaldığı dəyişiklikləri təyin etmək, ilkin formanın qaytarılması yollarını müəyyənləşdirmək vacibdir.

Müasir elmi rekonstruksiya tarixi əşyanın ümumi tarixi prosesdə yerini və rolunu müəyyənləşdirmək məqsədilə onun ilkin vəziyyətində tərtib olunmasını nəzərdə tutur.

"Bərpa" ("restavrasiya") və rekonstruksiya terminləri yaxın olsalar da, hələ XIX əsrin sonlarında onların prinsipial fərqləri mütəxəssislər tərəfindən göstərilmişdir. Məsələn, arxeoloqlar tərəfindən tapılmış qılıncın bərpa edilməsi ilk növbədə onun palçıq, pas, patina və s. təmizləməsini nəzərdə tutur. Lakin bu qılıncın rekonstruksiyası üçün onun bütün elementləri – qın, kəmərə asılma sistemi, bəzək əşyaları və s.-dən müəyyən olunmalı və düzəldilməlidir. Beləliklə, arxeoloji tapıntının bərpası (restavrasiyası) onu müzey eksponatına çevirsə də, lakin tarixi mənbə kimi istifadəsi üçün bu azdır. Tapıntının maddi mədəniyyətin, hərb işinin, sənətkarığın inkişaf xəttində tutduğu yeri müəyyən etmək üçün onun hərtərəfli tarixi rekonstruksiyası həyata keçirilməlidir.



Qədim dövr və orta əsr silah nümunəsi ilə bağlı bərpa və rekonstruksiya problemləri onun aşkar olunması və ya muzeyə daxil olunması məqamından başlayır. Belə ki, tam rekonstruksiya üçün silahın hansı əşyalar arasında tapılmasını bilmək vacibdir. Lakin əslində əşyaların tapılması şəraiti çox vaxt bunu öyrənməyə imkan vermir.

Bərpa və rekonstruksiyanın digər problemi tarixi eksponatın mürəkkəb, kompleks strukturu ilə bağlıdır. Belə ki, silah adətən tək metal hissədən ibarət deyil, ona digər materiallardan (gön, dəri, ağac, sümük və s.) olan elementlər də daxildir. Misal üçün, bıçaq, qılınc, xəncər adətən polad tiyə, ağac və ya sümük dəstək, dəri ilə örtülmüş ağac qından ibarətdir. Belə mürəkkəb tərkib korroziya ilə örtülmüş səthin təmizlənməsini çətinləşdirir. Mürəkkəb strukturlu eksponatların ayrıca qrupunu qızıl və gümüş elementlərlə, qiymətli daşlarla, eləcə də müxtəlif ekzotik materiallarla (firuzə, əqiq və s. daşlar, lələklər və s.) bəzədilmiş silahlar təşkil edir. Özünün sənətkarlıq və bədii baxımdan unikal tərtibatı belə mürəkkəb silahların restavrasiyası zamanı problemlər yaradır.

Beləliklə, bərpaçı hər materialın xüsusiyyətlərini nəzərə almalı, eksponatı sökərək onun ayrı-ayrı hissələrini bərpa etməlidir. Bərpa zamanı çətinliklər yaradan mürəkkəb eksponatların digər formasını müxtəlif metallardan, məsələn, bir silahda tunc və dəmir kimi elementlərdən düzəldilməsi təşkil edir.

Digər problem hücum silahlarının muzeyə natamam şəkildə daxil olması ilə bağlıdır. Bir çox hallarda belə silahlarda qın, asılma sistemi və s. itirilmiş olur. Belə silahın tam rekonstruksiyası müvafiq tarixi mənbə və ədəbiyyatın öyrənilməsini, digər muzeylərdə qorunan oxşar silahlarla müqayisələrin aparılmasını tələb edir. Yalnız belə kompleks yanaşma nəticəsində eksponatın tam rekonstruksiyasını keçirmək mümkündür.

Beləliklə, təqdim olunan kataloq qədim dövr Azərbaycan silahlarının bir qisminin tarixi rekonstruksiyasında ilkin mərhələ hesab oluna bilər. Başqa sözlə desək, arxeoloqlar silahı aşkar etmiş, onun dövrünü müəyyənləşdirmiş, bərpaçılar onun mövcud vəziyyətini nəzərə alaraq bərpa etmişlər. Silahın fotoşəkillərinin, ölçülərinin, materialının, tarixi dövrünün, tapılma yerinin dəqiq göstərilməsi gələcəkdə bu silahın tarixi rekonstruksiyasının həyata keçirməyə, Azərbaycanın hərb sənəti, sənətkarlıq, maddi-mədəniyyəti tarixində yerini müəyyənləşdirməyə imkan verəcək.



*AF 21558*
*Hündürlüyü 30 sm*
*Uzunluğu 23 sm*
*Eni 17 sm*



*AF 23674*
*Hündürlüyü 28 sm*
*Uzunluğu 21 sm*
*Eni 15 sm*



# MÜDAFİƏ SİLAHLARI

## DƏBİLQƏ

Hərb işinin inkişaf tarixi döyüşçünün şəxsi müdafiə silahlarının düşmənin hücum silahlarından qorunmasında oynadığı vacib rolu təsdiqləyir. Hələ mezolit dövründə yaranmağa başlayan müdafiə silahları uzun inkişaf yolu keçmişdir. Döyüşçünün şəxsi müdafiə kompleksi başı, bədəni, yuxarı və aşağı ətrafları qoruyan vasitələr və mobil müdafiə vasitəsinə bölünür. Başı qoruyan vasitələr dəbilqə, maska və yarımmaskalar, bədəni qoruyan vasitələr müxtəlif yaraq növləri, ətrafları qoruyan vasitələr qolçaqlar və ayaqlıqlardan ibarətdir. Mobil müdafiə vasitəsi kimi qalxan tətbiq edilirdi. Dövrün tələblərindən asılı olaraq əlavə elementlər, məsələn, qədim dövrdə döyüş kəməri, orta əsrlərdə dizliklər və s. da meydana çıxırdı.

Döyüş baş geyimi olan dəbilqələr Azərbaycanda qədim dövrlərdən tətbiq edilmişdir. Yerli istehsal sayılan ilk dəbilqə nümunələri (Cənubi Azərbaycanda Manna dövrü Həsənli qalasındakı iki tunc dəbilqə tapıntısı) e.ə. VIII əsrə aid edilir. Zahiri görünüşünə görə bu dəbilqələr "skif-savromat" və "sind-meot-sak" dəbilqə növünə yaxındırlar. Cənubi Azərbaycanda aşkar edilmiş sonrakı dövr dəbilqələri, həmçinin onların qayaüstü və divarüstü təsvirləri Azərbaycan dəbilqələrinin təkamül xəttini müəyyən etməyə imkan verir.

Qədim yunan və Roma müəllifləri Qafqaz Albaniyası döyüşçülərinin dəbilqələrinin olması haqqında məlumat versələr də, onların zahiri görünüşü yalnız Ağsu rayonunun Nüydi kəndi yaxınlığındakı nekropolda 1965-ci ildə aşkar edilmiş dəbilqə əsasında müəyyən olunmuşdur.

Yumurtavari formaya malik olan həmin dəbilqə nazik tunc təbəqədən döymə üsulu ilə düzəldilmiş, forma verildikdən sonra isə sağ və sol tərəflər ortada xırda mismarlarla birləşdirilmişdir. 700 qramdan artıq çəkisi olan dəbilqənin iki uzun, qabağa doğru əyilən qulaqlığı vardır. Qulaqlıqların qurtaracağında xırda dəliklərin olması onların çənədə iplər vasitəsilə bağlanması ehtimalını söyləməyə əsas verir. Qabaq tərəfində gözlər üçün kiçik kəsiklər qoyulmuşdur. Dəbilqənin qıraqları boyunca xırda puanson nöqtələr şəklində dekorativ haşiyə verilmişdir. Puanson nöqtələrin praktiki əhəmiyyəti də var idi: dəbilqənin qıraqları iti deyil, maili olur, istifadə zamanı çatlar əmələ gəlmirdi. Dəbilqənin üst tərəfinə pərçimlər vasitəsilə 15 sm hündürlüyü, 4 sm diametri olan boru birləşdirilmişdir. Bu maraqlı arxeoloji tapıntının səthinə qızıl su çəkilmişdir.

Dəbilqə kifayət qədər etibarlı müdafiə vasitəsi idi. Belə ki, onun hamar yan tərəflərinə vurulan zərbələr sürüşməni təmin edir, ortada olan boru isə düşmənə yuxarıdan aşağıya parçalayıcı zərbə vurmağa imkan vermirdi. Dəbilqənin daxili həcminin böyük olması onun yumşaq papaq üstündən geyilməsinə imkan verirdi. Papaq isə onun sahibini zərbə zamanı kontuziyadan qoruyurdu. Dəbilqənin səthinə qızılı suyunun çəkilməsi onun qoşunun komanda heyətinə məxsusluğunu ehtimal etmək imkanı yaradır.

Bu dəbilqədə qədim Şərq və Qərb mədəniyyətlərinin xüsusiyyətləri birləşir. Belə ki, sferik səth, gözlər üçün kəsiklər, puanson naxışın bütün kənarlar boyunca qoyulması "skif-savromat" və "sind-meot-sak" dəbilqə növünə xas cəhətlərdir. Uzun qulaqlıqlar və onların çənədə bağlanması antik, xüsusilə Roma dəbilqələrinə xas cəhət olmuşdur. Dəbilqənin yuxarı hissəsinə enli borunun birləşdirilməsi Krit-Miken mədəniyyətinin xüsusiyyətlərindəndir. Nüydi dəbilqəsinin oxşar nümunəsi 2009-cu ildə Qəbələ rayonunun Tola (Tövlə) kəndində aşkar edilmiş və hazırda Muzeyin Arxeologiya fondunda qorunmaqdadır (AF 23674).

Tədqiqat göstərir ki, qədim dövr alban ustaları belə dəbilqələri hazırlarkən müxtəlif xüsusiyyətləri birləşdirməyə və bununla da daha təkmil dəbilqə növü yaratmağa çalışmışlar.

# YARAQ LÖVHƏLƏRİ

Mezolit dövründə yay-oxun meydana gəlməsi bədəni qoruyan ilk yarağın yaranmasına səbəb olmuşdur. Digər döyüşçülər qalxanla və çevik hərəkətləri ilə qoruna bilərdilərsə, hər iki əli məşğul olan oxçu qalxan tuta bilmir və atəş açan zaman hərəkətsiz olduğundan özü hədəfə çevrilirdi. Oxçunu qorumaq üçün yaraq növləri tətbiq olunan ilk yaraq növlərinin dəridən olması ehtimal edilir. Cənubi Azərbaycanın Ziviye arxeoloji abidəsində aşkar olunan təsvir sübut etmişdir ki, Manna dövründə dəri yaraqlar üzərinə sümük və ya tunc lövhələr tikilirdi.

Tərtər rayonu Borsunlu kurqanında aşkar edilmiş tunc yaraq lövhələri göstərir ki, artıq e.ə. XI əsrdə Azərbaycanda bir-birlərinə qayış və ya ip vasitəsilə bağlanan tunc lövhəli yaraq növləri istifadə edilirdi. Oxşar lövhələr yaxınlıqdakı Sarıçoban və Bəyimsarov kurqanlarında da tapılmışdır. Eyni zamanda bu dövrdə müdafiə məqsədləri ilə parça və ya dəri geyim üzərinə dairəvi tunc lövhələrin tikilməsi üsulu da tətbiq edilmişdir.

Daşkəsən rayonu Xaçbulaq arxeoloji abidəsində tunc yaraq lövhələri aşkar edilmişdir. Əksəriyyəti dördbucaq (kvadrat və uzunsov) formalı olan tunc lövhələr iki dəlik vasitəsilə dəri (və ya keçə) paltara tikilirdi. Nazik tunc lövhələrin zərbəyə davamlılığını artırmaq üçün lövhələr üzərinə diaqonal çarpazlaşan şəkildə döymə usulu ilə puanson nöqtələr vurulmuşdur. Yarağın bəzi yerlərinə dairəvi qabarıq tunc lövhələr tikilmişdir.





*AF 23612*
*Hündürlüyü 4 - 2,5 sm, uzunluğu 7 - 3 sm, diametri 3 - 2 sm*

# TUNC DÜYMƏLƏR

Qədim dövr müdafiə geyimlərinin ilk nümunələrində yumşaq materialdan (dəri, çoxqatlı yun parça, keçə) olan yarağı gücləndirmək məqsədilə onun üzərinə çoxlu sayda tunc düymələr tikilirdi. Müxtəlif ölçülü (sinə və bel hissələrində daha iri, qarın, sağ və sol yan tərəflərdə kiçik) və əsasən dairəvi formada olan düymələrin zərbəyə davamlığını artırmaq üçün onlar qabarıq şəkildə (konusvari formada) düzəldilirdi. Belə yaraq mütəhərrik olur, hərəkətləri məhdudlaşdırmır, əksinə sadə yumşaq yarağa nisbətən daha etibarlı idi. Azərbaycanın qədim dövr arxeoloji abidələrində çoxlu sayda belə düymələr tapılmışdır. Borsunlu, Sarıçoban və Bəyimsarov kurqanlarının tapıntıları sübut edir ki, hətta tunc yaraq lövhələri meydana gəldikdən sonra da hələ bir müddət tunc düymələr tətbiq olunurdu.

Mingəçevir abidəsində aşkar edilmiş tunc yaraq düymələri qədim dövr Azərbaycan "düyməli yarağı"nın tərkib hissələrini tədqiq etməyə imkan verir.





*AF 27068*
*Ümumi diametrləri 4 - 2 sm*

# TUNC KƏMƏRLƏR

Qədim dövr şəxsi müdafiə elementlərindən biri də döyüş kəməri idi. Yumşaq materiallardan hazırlanmış paltarın yaxalığını bağlamaq üçün vasitə kimi meydana gələn kəmər sonralar müxtəlif alət və silahların daşınması üçün istifadə edilən asma vasitəsinə çevrilmişdir. Ov zamanı döyüşçünün qarın nahiyəsi nadir hallarda yaralandığından onu qorumağa ehtiyac yox idi. Lakin tayfa və tayfa birlikləri arasında müharibələrin artması və genişlənməsi, uzaq məsafədə hədəfi vurmaq imkanı verən yay-oxların, əlbəyaxa döyüş zamanı düşmənə kəmərdən aşağıya zərbə vurmaq imkanı verən bıçaq, xəncər və qılıncın meydana çıxması şəraitində qarın nahiyəsinin müdafiəsinə ehtiyac artmışdı. Qeyd etmək lazımdır ki, digər bədən üzvlərinə nisbətən qarın nahiyəsi qədim dövrdə daha zəif yer idi: qarına vurulmuş zərbə əksər hallarda ölümlə nəticələnirdi. Bu səbəbdən qarın təkcə bütün bədəni qoruyan yumşaq və ya tunc lövhəli yaraqla deyil, əlavə olaraq kəmərlə də qorunurdu. Təbii ki, döyüş kəməri bir tərəfdən etibarlı və enli olmalı, digər tərəfdən isə döyüşçünün hərəkətlərini məhdudlaşdırmamalı idi. Nəticədə tuncdan düzəldilərək arxasına parça astar tikilən döyüş kəmərləri meydana gəldi.

Qədim dövrdə tədricən kəmərin utilitar (əşyaların daşınması üçün asma) və döyüş (qarın nahiyəsinin qorunması) əhəmiyyətindən başqa rəmzi mənası da formalaşmışdır (qoruyucu amulet, hakimiyyət rəmzi və s.). Nəticədə kəmərlər müxtəlif təsvir, işarə və rəmzlərlə bəzədilirdi.

Çovdar arxeoloji abidəsində tapılmış tunc kəmər (AF 1701) qədim dövr Azərbaycan müdafiə kəmərlərinin bariz nümunəsi hesab oluna bilər. Mövcud tunc hissəsinin uzunluğu beli tam qurşanmaq üçün kifayət qədər uzun deyil. Belə ehtimal etmək olar ki, tunc hissə daha uzun olan dəri kəmərə birləşdirilmişdir. Nəticədə kəmər belə bağlandıqda döyüşçünün zərbələrə daha çox məruz qalan qarnı və böyürləri qorunurdu.

Qazax rayonu ərazisində aşkar edilmiş tunc kəmər yuxarıda göstərilən kəmərə (AF 21735) nisbətən daha enlidir. Kəmərin böyük səthi, üzərində geniş və çoxfiqurlu kompozisya təsvir etməyə imkan vermişdir.



***AF 1701***
***Uzunluğu 46 sm, eni 6,5 sm***



***AF 21735***
***Uzunluğu 86 sm, eni 16 sm***



# TUNC QALXAN UMBONU

Qalxanların Azərbaycanda meydana gəlmə vaxtı ilə bağlı müxtəlif fikirlər mövcuddur. Hər halda, Manna qalalarını təsvir edən e.ə. VIII əsrə aid Assuriya divar rəsmlərində Manna döyüşçüləri budaqlardan toxunmuş uzunsov dördbucaq qalxanlarla təsvir edilmişdir.

Azərbaycan ərazisində aparılmış arxeoloji qazıntılar nəticəsində ağac qalxanların tərkib hissələri olan və tuncdan hazırlanmış dəyirmi umbon (mərkəzdə bərkidilən lövhə), nazik haşiyə və dəstəklər aşkar edilmişdir. Belə ki, qalxan budaqlardan (adətən mütəhərrik olan meynə çubuqları) dəyirmi formada toxunur, mərkəzinə umbon bərkidilir, qıraqlarına haşiyə vurulur və iç tərəfdən dəstək birləşdirilirdi.

Göygöl rayonunda tapılmış tunc umbon qabarıq formada olub, bir-birinin üstünə gələn dairəvi disklərdən ibarətdir. Umbonun ortasında diametri 2 sm olan qabarıq çıxıntı var, arxasına isə qalxana bərkitmək üçün dörd ilgək lehimlənib.



***AF 27325***
***Diametr 20,5 sm, hündürlük 0,9 sm***

# HÜCUM SİLAHLARI

## DAŞ TOPPUZLAR

Bəşəriyyətin ilk silahlarından olan toppuz iki hissədən – daş başlıq (döyüş hissəsi) və onun taxıldığı ağac dəstəkdən ibarət olmuşdur. Dəstək üzvi materiallardan düzəldildiyinə görə dövrümüzə qədər çatmamış, lakin daş hissələr böyük sayda aşkar edilmişdir. Daş toppuzlar kifayət qədər ağır alət və silah idi. Məsələn, Mingəçevirdən tapılmış bir daş toppuz başlığının çəkisi 10 kq-dan artıq idi. Ovda istifadə edilən daş toppuzu döyüşdə yalnız güclü, xüsusi fiziki hazırlığı ilə seçilən döyüşçülər istifadə edə bilirdi.

Qazax rayonunun Töyrətəpə arxeoloji abidəsində tapılmış kürəvari daş toppuzun (AF 28241) hazırlanması ehtimal ki, başa çatmamışdır. Belə ki, onun səthi hamarlaşdırılsa da, ağac sapın taxılması üçün nəzərdə tutulan dəlik tam açılmamış, yalnız cüzi oyuq açılmışdır.

Mingəçevir arxeoloji abidəsində tapılmış daş toppuz isə (AF 27107) çəlləkvari formadadır. Səthi hamar olan toppuzun mərkəzind dəstək üçün şaquli dairəvi dəlik açılıb.



***AF 28241***
***Diametri 6,5 sm, hündürlüyü 5 sm***



***AF 27107***
***Uzunluğu 8 sm, diametri 6 sm***

## DAŞ BALTALAR

Daş silahların toppuzlardan sonra növbəti inkişaf mərhələsi olan daş baltaların müxtəlif formaları Azərbaycan ərazisində aparılmış arxeoloji qazıntılar nəticəsində aşkar edilmişdir. Ən qədim baltaların arxa tərəfində sapa bağlamaq üçün yiv qoyulsa da, sonrakı dövr baltaların mərkəzində dəlik oyulurdu. Baltaların zərbə hissələrinin formaları da müxtəlif olurdu. Böyük əksəriyyəti ənənəvi olaraq enli zərbə hissəsinə malik olsa da, bir qisim baltaların zərbə hissəsi uca doğru sivriləşirdi. Sivri uclu daş balta sonralar sivri uclu tunc baltaya, nəhayət, orta əsrlərdə "çakan" ("çokan") adlanan zərbə silah növünə çevrilmişdir.

Naxçıvan Muxtar Respublikası ərazisindən təsadüfi aşkar edilmiş daş balta (AF 1470) hamar səthi və sivriləşən uc hissəsi ilə seçilir.

Qədim dövr Azərbaycan silahlarının təkamülünün tədqiqi baxımından təkcə aşkar edilmiş tam silahlar deyil, düzəldilməkdə olan və müxtəlif səbəblərdən natamam qalmış silahlar mühüm əhəmiyyət kəsb edir. Belə tapıntılar sənətkarların hansı istiqamətdə axtarış aparmalarını, hansı nəticələr əldə etmələrini göstərir. Ən əsası isə, yerli istehsalın mövcud olmasını əyani olaraq sübut edir.

Qusar arxeoloji abidəsində aşkar edilmiş daş baltacıq (AF 21663) belə tapıntılardandır. Zərbə hissəsinin uc tərəfi tam cilalanmasa və ağac sap üçün dəlik tamamlanmasa da, görünür ki, usta bu silahın düzəldilməsinə çox əmək sərf etmişdir. Bu tip baltacıqlar sonrakı dövrlərdə inkişaf etmiş, orta əsrlərdə isə süvarilərin əsas balta növü kimi yayılmışdır.





***AF 1470***
***Hündürlüyü 8,6 sm, uzunluğu 22 sm, eni 12,5 sm***



***AF 21663***
***Uzunluğu 10,1 sm, eni 5 sm, diametr 2,3 sm***



***AF 27285***
***Uzunluğu 18 sm, eni 7 sm***

## TUNC BALTA

Yuxarıda göstərilən daş baltacığın (AF 21663) növbəti inkişaf mərhələsini artıq tunc dövrünün bəzi nümunələrində görmək olur. Belə ki, etibarlı dayağı təmin etmək məqsədilə baltanın sapı taxmaq üçün dəliyi dairəvi deyil, ellips şəklində düzəldilirdi. Onun döyüş hissəsi nisbətən uzanmış, bilavasitə zərbə vurulan hissə isə daralmışdır. Baltanın döyüş hissəsinin üst tərəfində xoruz pipiyinə bənzər çıxıntı mövcuddur. Beləliklə, bu tip döyüş baltasının ölçüləri kiçik olsa da, onunla güclü parçalayıcı zərbələr vurmaq olurdu. Belə zərbələr başına tunc dəbilqə, bədəninə tunc lövhəli yaraq geymiş düşmənə qarşı effektiv idi.

## BALTA QƏLİBİ

Azərbaycanda tunc silahların yerli istehsalını təkcə belə silahların çoxsaylı tapıntıları deyil, onların töküldüyü daş qəliblərin aşkar olunması da təsdiqləyir. Şəmkir rayonu ərazisində tapılmış daş balta qəlibi ayparaşəkilli baltanın tökülməsi üçün nəzərdə tutulmuşdur. Üz tərəfi saya, iç tərəfi isə oyuq olan daş qəlib göstərir ki, baltanın tunc hissəsi (döyüş və taxılma hissələri) bütövlüklə bir qəlibdə tökülürdü.



***AF 27299***
***Hündürlüyü 7,5 sm, uzunluğu 20 sm, eni 16,5 sm***

# TUNC BALTALAR

Azərbaycanda ilk dəfə tunc dövründə meydana gəlmiş, sonralar isə geniş yayılmış tunc balta forması ayparaşəkilli döyüş hissəsinə malik baltalar idi. XIX əsrin əvvəllərinədək istifadə edilən bu balta növü faktiki olaraq ən uzunömürlü balta növü hesab oluna bilər. Belə ki, belə balta istər piyadalar, istərsə də süvarilərin istifadəsi üçün münasib forma və çəkiyə malik idi. Bu səbəbdən elmi ədəbiyyatda bu növ balta "təbərzin balta" adı ilə göstərilirdi. Ehtimal ki, balta formasının uzunömürlü olmasını təmin edən amillərdən biri də onun rəmzi məna daşıması ilə bağlıdır. Qafqaz Albaniyası dövründə Aya sitayiş mövcud olmuş, bu baxımdan ay şəklində olan silahlar geniş yayılmışdı. İslamın qəbul edilməsindən sonra da ayparaşəkilli baltalar rəmzi məna daşıdığından çoxlu sayda istehsal olunurdu.

Şabran rayonu Məşrif kəndi ərazisindən tapılmış bu balta (AF 24358) Azərbaycan tunc təbərzin baltalarına xas olan cəhətlərə (aypraşəkilli ağız hissəsi, küp hissəsində qabarıq haşiyə, ortasında çıxıntı) malik olsa da, bununla belə döyüş hissəsi nisbətən uzunsovdur.

Mingəçevir ərazisində aparılmış qazıntılarda tapılmış təbərzin balta isə (AF 27321) bu növ baltalara xas olan klassik quruluş və formaya malikdir. Şabran rayonu Məşrif kəndi ərazisindən tapılmış bu balta (AF 24358) Azərbaycan tunc təbərzin baltalarına xas olan cəhətlərə (aypraşəkilli ağız hissəsi, küp hissəsində qabarıq haşiyə, ortasında çıxıntı) malik olsa da, bununla belə döyüş hissəsi nisbətən uzunsovdur. Mingəçevir ərazisində aparılmış qazıntılarda tapılmış təbərzin balta isə (AF 27321) bu növ baltalara xas olan klassik quruluş və formaya malikdir.





**AF 27321 Hündürlüyü 4,2 sm, uzunluğu 14 sm, eni 12,3 sm**



**AF 24358 Uzunluğu 19,4 sm. Eni 15.0 sm**

# TUNC DÖYÜŞ BALTASI

Qədim dövr tunc baltalarının böyük əksəriyyətinin xüsusiyyətlərindən biri onların universal xarakterə malik olmalarıdır. Belə ki, əksər hallarda döyüş baltalarını ehtiyac yarandıqda təsərrüfat işlərində də istifadə etmək mümkün idi. Bununla belə, bəzi baltalar öz quruluşuna görə sırf döyüşlə bağlı fərqli xüsusiyyətlərə malik olduqlarından, onların təsərrüfatda tətbiqi mümkünsüz olmuşdu. Belə döyüş baltalarından biri Azərbaycan Respublikası ərazisindən tapılmışdır. Onun uzun, nisbətən aşağıya əyilmiş döyüş hissəsi güclü dəlici - parçalayıcı zərbələr vurmağa, dərinə işləyərək, ağır xəsarətlər yetirməyə qadir idi. Küp hissəsinin arxasında olan üç uzun və iti diş dərin batırıcı zərbələr vurmağa imkan verirdi. Beləliklə, metal dəbilqə və yaraq geymiş düşmənə qarşı tiyəli tərəf, pambıq-keçə yaraq geymiş düşmənə qarşı isə ucları olan hissə tətbiq edilirdi. Döyüş hissəsinin aşağıya doğru əyri olması, xüsusən də uzun dişlərin mövcudluğu belə baltanı təsərrüfat işlərində istifadəsinə imkan vermirdi.



**AF 23984**
**Hündürlüyü 3,7 sm, uzunluğu 27,5 sm, eni 7 sm**

# TUNC ƏMUD BAŞLIĞI

Zərbə silahı olan toppuzun növbəti inkişaf mərhələsi əmud olmuşdur. Belə ki, toppuza nisbətən daha kiçik ölçüləri, az çəkisi, istifadə əlverişliliyi ilə seçilən əmud estetik baxımdan da daha zəngin bəzədilirdi. Təsadüfi deyil ki, sonrakı dövrlərdə tunc əmud təkcə silah deyil, hakimiyyət rəmzi kimi də istifadə edilirdi. Azərbaycanda tunc dövründə düzəldilən əmud başlıqları sapa taxılan boru hissəsi və çıxıntılı (dişli) döyüş hissəsindən ibarət olurdu. Tapıntılar sübut edir ki, sapa taxılan borunun uzunluğu, dişlərin sayı müxtəlif ola bilərdi. Misal üçün, Torpaqqalada (Qax rayonunda) aşkar olunmuş bir tunc əmudun 15 dişi (ümumi çəkisi 520 qram), digər əmudun isə 12 dişi (ümumi çəkisi 480 qram) var idi. Xocavənd rayonunun Dolanlar kəndi yaxınlığında tapılmış əmud başlığının (AF 1200) sapa taxılan borusunun aşağısında ağac dəstəyi keçirmək və mıxla bərkitmək üçün iki dəlik mövcuddur. Döyüş hissəsi üç cərgəyə düzülmiş 9 dişdən ibarətdir.



**AF 1200**
**Hündürlüyü 9,1 sm, eni 4 sm**

# TUNC NİZƏ UCLUQLARI

Bəşəriyyətin yaratdığı ilk batırıcı silah ucu şiş ağac paya hesab olunur. Nizə adı ilə məlum olan belə silah zaman keçdikcə iki hissədən ibarət oldu: ağac sap üzərinə daş, sonralar mis, tunc və, nəhayət, dəmir ucluq taxılırdı. Döyüşdə atların tətbiq edilməsi, atlı döyüşçünün nizədən istifadə etməsi nizənin yeni tərkib hissəsini - sapın aşağı hissəsinə taxılan tunc sonluğu meydana gətirdi. XVIII əsrin əvvəllərinədək piyadalar, XX əsrin 30-cu illərindək isə atlılar tərəfindən istifadə olunan nizələrin tərkib hissələri əsasən dəyişməz qalmışdır. Bununla belə, hər dövrün müdafiə geyimlərinin xüsusiyyətləri nizələrin ümumi, əsasən də döyüş ucluğunun quruluşuna təsir göstəririrdi.

Daşkəsən rayonunun Xaçbulaq arxeoloji abidəsindən tapılmış nizə ucluğu (AF 28242) tökmə üsulu ilə hazırlanmışdır. Ucluğun pər hissəsi uzunsov yarpaq şəkillidir. Pərin qanadları nazik və itidir. Sulğunc uzun (pərin 1,5 uzunluğu qədər) olub, tam ağız-ağıza birləşməyib.

Cəlilabad rayonu ərazisindəki Uzuntəpə kurqanından tapılmış nizə ucu (AF 3039) yuxarıda göstərilən nizəyə nisbətən daha sonrakı dövrə aiddir. Belə ki, ucluğun pər hissəsi uzunsov-rombvaridir, ortasında til ilə gücləndirilib. Pərin tillərlə gücləndirilməsi nizənin möhkəm (metal) yarağı deşmək üçün nəzərdə tutulduğunu göstərir. Ucluq soyuq döymə üsulu ilə düzəldilib. Sulğuncun aşağısında ağacdan dəstək keçirmək üçün iki dəlik açılmışdır.

Mingəçevir arxeoloji abidəsindən tapılmış nizə ucluğu (AF 28249) yuxarıda göstərilən ucluğun oxşarıdır.



**AF 28242**
**Uzunluğu 22,8 sm, eni 3 sm**



*AF 3039*
*Uzunluğu 21,5 sm, eni 3,5 sm*



*AF 28249*
*Uzunluğu 22 sm, eni 3,5 sm*

## TUNC NİZƏ SONLUĞU

Nizə sapına bir tərəfdən ucluq, digər tərəfdən isə sonluq taxılırdı. Nizənin ucluğu düşmənə tərəf yönəldilib, zərbə üçün istifadə edilirdisə, sonluq əksçəki rolunu oynayır, uzun silah saxlayan döyüşçünün at belində müvazinətini saxlamağa imkan verirdi. Erkən orta əsrlərdə yəhərin meydana gəlməsi ilə döyüşçü at belində daha möhkəm oturduğundan əksçəkiyə ehtiyac azaldı. Nizənin metal sonluq hissəsi həmçinin nizəni dayanacaqlarda, düşərgədə şaquli vəziyyətdə yerə batırmağa imkan verirdi.

Daşkəsən rayonunun Əmirvar arxeoloji abidəsindən tapılmış tunc nizə sonluğu uzunsov olub, nizə sapının aşağı hissəsinin formasını təkrarlayır. Üzərində üç sırada altı, birində isə beş olmaqla kiçik dəliklər açılmışdır.



*AF 27333*
*Uzunluğu 18 sm, diametri 3,5 sm*



## DƏMİR NİZƏ UCLUĞU

Mingəçevir arxeoloji abidəsindən tapılmış dəmir nizə ucluğu uzunsov-rombvari döyüş hissəsi ilə diqqəti cəlb edir. Sonrakı dövrlər üçün bu formalı ucluq ənənəvi olmuş, müxtəlif xarakterli yaraq geymiş düşmənə qarşı tətbiq edilmişdi.



*AF 23585*
*Uzunluğu 26 sm, eni 5,5 sm, diametri 3 sm, hündürlüyü 1,5 sm*

## TUNC DÖYÜŞ YABASI

Qədim dövrdə tətbiq edilən orta məsafəli silahlar sırasında döyüş yabası da özünəməxsus yer tutur. Nizəyə nisbətən döyüş yabaları daha az tətbiq edilirdi. Çünki yaba kimi uzun və enli ucluğu olan silahın əlbəyaxa döyüşdə istifadə edilməsi böyük bacarıq və məharət tələb edirdi. Üstəlik, yaba metal yarağı olan düşmənə qarşı da az effektiv idi.

Şəki rayonu ərazisindən tapılmış tunc yaba ucluğunun iki dişi, bir sulğuncu vardır. Aşağı hissəsində iki halqa ilə möhkəmləndirilmiş borunu sapa mıxla bərkitmək üçün iki dəlik açılıb.



*AF 24859*
*Uzunluğu 76 sm, eni 16 sm, diametr 6 sm*

## DAŞ OX UCLUQLARI

Qədim dövr hərb işində çevriliş etmiş silah növlərindən biri də yay və oxdur. Döyüşü uzaq məsafədə aparmağa imkan verən bu silah təkcə əlbəyaxa döyüşün qaydalarına deyil, ümumiyyətlə döyüş taktikası və hətta strategiyasına da təsir göstərmişdir. Odlu silahın icad edilməsinə qədər yeganə fərdi uzaqməsafəli silah növü olan yay-ox, odlu silah meydana gələndən sonra belə geniş istifadə olunmaqda davam edirdi. Yaylar üzvi materiallardan düzəldildiyindən dövrümüzə qədər gəlib çatmamış, lakin ox ucluqarı daş, sümük və metaldan olduğuna görə arxeolji abidələrdən çoxlu sayda tapılmışdır.

Muzeyin Arxeologiya fondunun kolleksiyasında mövcud olan çoxsaylı ox ucluqlarının xronoloji baxımdan ən qədimləri çaxmaqdaşından (AF 27265) düzəldilmişdir. Mikrolit alət olaraq bu ox ucluqları üçbucaq və ya uzunsov-üçbucaq şəklində daşdan düzəldilir, arxasındakı kiçik çıxıntı vasitəsilə ağac və ya qamış sapa taxılırdı.

Daş dövrünə aid ox ucluqları sırasında dəvəgözü daşından (obsidiandan) düzəldilmiş ox ucluqları da az deyildir.

Şəki rayonu ərazisindəki Küdürlü kurqanından aşkarlanmış ox ucluqları (AF 21662) dəvəgözü daşından üçbucaq şəklində düzəldilmişdir. Sapa taxmaq üçün bu ox ucluqlarının arxa hissəsində oyuq açılmışdır.



***AF 27265***
***1.Uzunluğu 1,8 sm, eni 1 sm***
***2.Uzunluğu 2,8 sm, eni 2 sm***



***AF 21662***
***1. Uzunluğu 3 sm***
***2. Uzunluğu 3,2 sm***

## SÜMÜK OX UCLUĞU

Neolit dövründə üzvi materiallardan düzəldilən ox ucluqları da istifadə edilirdi. Azərbaycan Respublikası Ağstafaçay arxeoloji abidəsindən tapılmış sümük ox ucluğu uzun yarpaqvari yastı döyüş hissəsi və nisbətən enli yastı mili ilə diqqəti cəlb edir.



*AF 28247*
*Uzunluğu 6,2 sm*

## TUNC OX UCLUQLARI

Mingəçevir arxeoloji abidəsindəki kurqandan tapılmış ox ucluğu (AF 27349) qısa üçbucaq şəkilli pər və uzun mildən ibarət idi. Milin uzun olması ox sapının qarğı və ya qamışdan olduğunu ehtimal etmək imkanı verir.

Azərbaycan Respublikası ərazisindəki arxeoloji abidələrdən çoxlu sayda ox ucluqları tapılmışdır ki, onları sadə ox ucluqlarından "Cənubi Qafqaz ox ucluğu" tipinə keçid mərhələsi kimi qəbul etmək olar. Belə ki, ilk nümunələri uzun mil, üçbucaq pəri ilə seçilən bu ucluqların tədricən mili qısalır, pərin qanadlarının ucları uzanır, mil tədricən pərin orta hissəsinə çatır.

Muzeyin Arxeologiya fondunda belə ox ucluqlarının (Arxeologiya fondunun müxtəlif abidələrindən tapılmış tunc ox ucluqları) çoxsaylı olması yerli istehsalı nümayiş etdirməklə bərabər ox ucluqlarının təkamül xəttini müəyyənləşdirməyə imkan verir.



*AF 27349*
*Uzunluğu 16,5 sm, eni 2,5 sm*

# TUNC BIÇAQ QINI

Xocavənd rayonunun Dolanlar kəndi ərazisindən aşkar edilmiş əyri-tiyəli bıçaq qını nazik tunc təbəqədən bükülmə üsulu ilə düzəldilib. Qının dəstəyə yaxın hissəsi əlavə kəpənəkvari lövhə ilə gücləndirilib.



*AF 1194 Hündürlüyü 1,8 sm, uzunluğu 22,5 sm, eni 5,2 sm*

# TUNC XƏNCƏRLƏR

Xəncər ikiağızlı düz tiyəsi olan kəsici-batırıcı silahdır. Bu silahda tiyənin işlək hissəsi ucluğa keçən iki paralel tərəflərlə (ağızlarla) işlənilib.

İlk tunc xəncərlərin formasına daş bıçaqların quruluşu təsir göstərmişdir. Belə ki, daş bıçaq uzunsov-üçbucaq şəkilli, qıraqları itilənmə səviyyəsinədək cilalanmış daş tiyədən, onun üst hissəsinə bağlanmış ağac dəstəkdən ibarət idi. Mis kəşf olunanda əksər hallarda ondan yalnız tiyə tökülür, dəstək əvvəlki kimi ağacdan olurdu. Belə bıcaqların konstruktiv zəif cəhəti tiyə ilə dəstəyin birləşmə yeri idi. Nəticədə, tunc silahlar meydana gələndə silah bütövlüklə vahid qəlibdə tökülürdü.

Beləliklə, dəstəklə tiyənin birləşmə yeri kifayət qədər etibarlı olmuş, onunla təkcə kəsmək deyil, batırıcı zərbələr də vurmaq mümkün idi. Bıçağa nisbətən tiyənin daha da uzadılması, dəstəyin daha da möhkəm düzəldilməsi xəncər silah növünü meydana gətirdi. Belə silahla kəsici, batırıcı və hətta doğrayıcı zərbələr vurmaq mümkün idi.

Daşkəsən rayonu ərazisindəki Çovdar arxeoloji abidəsində aşkar edilmiş tunc xəncər (AF 505) uzunsov-üçbucaq, dəstəyə yaxın enlənən tiyə, onunla birlikdə tökülmüş dəstək və başlıqdan ibarətdir. Dəstək açıq təbəqə şəklində tökülmüş, boru şəklində qatlanmışdır. Belə dəstək əldə sürüşməsin deyə, adətən onun üzərinə dəri çəkilir və ya ip sarınırdı. Başlıq dəstəyə bağlanan ipi düyünləməyə, eyni zamanda, halqa keçirib silahı kəmərdə asmaq üçün nəzərdə tutulmuşdur (bu səbəbdən başlıq üzərində dəlik qoyulurdu).

Lənkəran ərazisindən aşkar edilmiş xəncər (AF 24910) ustaların əldə etdiyi maraqlı nəticəni nümayiş etdirir. Belə ki, tiyə uzundur, uca yaxın sivriləşir, bütün uzunluğu boyunca tiyənin mərkəzi hissəsi düz qalın zolaq şəklində uzanır, sağ və sol ağızlar isə nazikdir. Efes dəstəyi tiyədən ayıran enli haşiyə şəklində tökülüb. Tutacaq dördbucaq formalıdır, içərisi ağacdandır. Başlıq tağ şəklində tökülmüşdür, içi boşdur.



*AF 505 Uzunluğu 28 sm, eni 3,9 sm*



*AF 24910 Uzunluğu 43,5 sm, eni 4 sm*



# TUNC XƏNCƏRLƏR

Cəlilabad rayonu ərazisindəki Uzuntəpə kurqanından aşkar edilmiş xəncər (AF 27345) qədim dövr silah ustalarının yeni, daha mükəmməl silah istehsalı istiqamətindəki aşxtarışlarını əyani olaraq nümayiş etdirir. Tiyə, dəstək və başlıqdan ibarət olan xəncərin hər bir hissəsi ayrı-ayrılıqda tökülüb. Tiyə uzundur, uca yaxın sivriləşir. Bütün uzunluğu boyunca tiyənin mərkəzi hissəsi daha qalındır, sağ və sol ağızlar isə nazikdir. Bu xüsusiyyət həm tiyənin möhkəmliyini təmin edir, həm də ağızların itilənməsini asanlaşdırırdı. Dəstək mürəkkəb formalıdır: dəstək dördbucaq, efes isə tiyənin yuxarısını sıxac şəklində tökülüb. Başlıq nazik tunc təbəqədən halqa şəklində düzəldilib. Bütün hissələr bir-birinə etibarlı şəkildə qaynaq edilib.

Təqdim edilən xəncər (AF 27324) yuxarıda göstərilən xəncərin (AF 27345) daha təkmilləşdirilmiş forması hesab edilə bilər. Belə ki, tiyənin mərkəzi daha qalındır, lakin nisbətən dardır. Tiyənin bütün uzunluğu boyunca gedən bu mərkəzi hissə faktiki olaraq tiyənin gücləndirən til rolunu oynayır. Dəstəyin efesi sadədir, lakin tutacaq şəbəkə təəssüratını bağışlayan xanalı ornamentlə bəzədilib. Bağlıq yastı papağa bənzəyir. Silah vahid qəlibdə tökülmüşdür.



*AF 27324 Uzunluğu 28,5 sm, eni 3,5 sm, dəstəyinin diametri 3 sm*



*AF 27345 Uzunluğu 39 sm, eni 5 sm*

# TUNC XƏNCƏR

Uzuntəpə kurqanından aşkar edilmiş xəncər tunc dövrü Azərbaycan xəncərlərinin zirvəsi hesab oluna bilər. Belə ki, yerli ənənə əsasında, Yaxın Şərq və Ön Asiya metalişləmə təcrübəsini nəzərə almaqla düzəldilən bu növ xəncərlər əlbəyaxa döyüş üçün optimal quruluş və formaya malik idi (AF 3040) Uzunsov-üçbucaq tiyə mərkəzdə keçən qalın til ilə gücləndirilmişdir. Xəncər dəstəyinin efesi yoxdur, lakin tiyənin yuxarı, dəstəyin aşağı hissələrinin enli olması burada efes yaradır. Dəstəyin tutacağı nazik tunc lövhənin dairəvi şəkildə bükülməsi ilə əmələ gəlib. Tutacağın iç tərəfinə ağac vurulmuşdur.

Bir sıra arxeoloji tapıntılar göstərir ki, tunc tutacağın üzərinə ağac lövhələr taxılırdı. Nəticədə əl dəstəkdən sürüşmürdü. Ağac lövhələrin tutacaq üzərində möhkəm "oturmasını" təmin etmək üçün dəstəyə başlıq taxılırdı. Konusvari şəbəkəli papaq şəklində olan başlıq müxtəlif cür bəzədilir və xəncəri estetik nəzərdən daha baxımlı edirdi.



*AF 3040 Uzunluğu 42.0 sm, eni 3.5 sm*

## TUNC QILINC

Xəncərin tiyəsinin uzunlaşdırılması yeni soyuq silahı - qılıncı meydana gətirdi. Yaxınməsafəli döyüş silahı sayılsa da, qılınc döyüşçüyə vuruş zamanı düşməni özündən daha uzaq saxlamaq imkanı verirdi. Atlı döyüşçülərin qılıncla silahlanması döyüş taktikasında əsaslı dönüş yaratdı: əvvəllər atlı döyüşçü piyadanı orta məsafədə yalnız nizə ilə vura bilərdi, yaxın məsafədə isə piyada əlçatmaz olurdu. Belə ki, atlının nə xəncəri, nə də bıçağı piyadaya çatmırdı. Atlının piyadanı vurmaq üçün atdan düşməsi bir zərurətə çevrirdi ki, bu da döyüşün ümumi sürətinə təsir göstərirdi. Qılıncın meydana gəlməsi ilə sürətlə düşmən üzərinə at çapan döyüşçü rəqibini qılıncla vurur və sürəti azaltmadan irəliləyirdi. Bu taktiki element qılıncların quruluşuna və təyinatına təsir göstərmişdi. Tunc dövründə ən geniş yayılmış qılınc növü kəsici-doğrayıcı zərbələr vurmağa imkan verən nümunələr idi (AF27335).

Azərbaycan ərazisində aşkar edilmiş tunc dövrü qılıncları sırasında şərti olaraq "Cənubi Qafqaz qılıncı" adlandırılan silah nümunələri çoxluq təşkil edir. Şəmkir arxeoloji abidəsində aşkar edilmiş qılınc bu növ silahların bariz nümunəsidir. Qəlibdə bütöv şəkildə tökülən bu qılınc ağır enli tiyəsi ilə seçilir. Belə tiyə ilə yalnız yuxarıdan aşağıya doğrayıcı zərbələr vurmaq mümkün idi. Tiyə batırıcı zərbələr üçün nəzərdə tutulmadığından ucu dairəvi və küt idi. Zərbə zamanı tiyə qırılmasın deyə aşağı mərkəzi hissəsi qalın olur, yuxarı hissədə isə yivlər qoyulurdu. Yivlər arasındakı tillər tiyəni gücləndirirdi. Yivlər isə tiyənin bu hissəsinin çəkisini azaldırdı. Nisbət baxımından tiyənin aşağı hissəsi daha ağır olduğundan zərbənin qüvvəsini artırırdı. Dəstəyin efesi yoxdur, lakin tiyənin "çiyinləri" enli olduğundan zərbə zamanı əl tiyəyə sürüşmürdü. Tutacaq xəncərlərə xas oln bükülmə üsulu ilə düzəldilir, boşluq ağacla doldurulur, yuxarı hissəsində başlıq qoyulurdu.



*AF 27335 Uzunluğu 72 sm, eni 7,5 sm*

Uzuntəpə kurqanında aşkar edilmiş qılınc yeni "rapira" növlü qılıncların bariz nümunəsi hesab oluna bilər (AF 3062). Belə ki, yumşaq və ya tunc düyməciklərlə gücləndirilmiş yaraq geymiş düşməni kəsici-doğrayıcı xassələri olan "Cənubi Qafqaz" növlü qılıncla vurmaq çətin idi. Belə yaraqlara qarşı batırıcı silahın tətbiq edilməsi daha effektiv olardı. Nəticədə uzun, ucu şiş tiyəyə malik qılınclar meydana gəldi.



*AF 3062*
*Uzunluğu 77,5 sm, eni 3,5 sm*

Müxtəlif xarakterli döyüşlər nəticəsində qılıncların forma və quruluşunda dəyişikliklər baş verirdi. Təkamül nəticəsində meydana gələn qılınc növü prinsip etibarı ilə həm kəsici-doğrayıcı, həm də batırıcı zərbələr vurmağa imkan verirdi. Uzun enli tiyənin sağ və sol ağızları itilənir, eyni zamanda tiyənin ucu da çox iti olurdu. Tiyənin bütün uzunluğu boyunca gedən mərkəzi enli hissə istər doğrayıcı, istərsə də batırıcı zərbələr zamanı möhkəmliyi təmin edirdi. Texnoloji baxımdan hissələri ayrı-ayrı lıqda tökülüb, vahid şəkildə qaynaq edilən qılınclar daha möhkəm olduğuna görə tiyə, dəstək, başlıq ayrılıqda düzəldilirdi. Dəstəyin dördbucaq tutacağı daha möhkəm olurdu. Eləs dəstəyi tiyədən ayırmalı, eyni zamanda dəstəyin tiyədə möhkəm oturmasını təmin etməliydi.

Bütün göstərilən xüsusiyyətləri son tunc-erkən dəmir dövrünə aid qılınclarda görmək olar. Uzuntəpə arxeoloji abidəsindən aşkar edilmiş qılıncın bir maraqlı xüsusiyyəti də var: qılıncın başlığı yəhərvari formadadır. Tədqiqatlar göstərir ki, bu tip başlıq əslində qoç buynuzu şəklində düzəldilirdi. Məlum olduğu kimi buynuzlar güc və qüvvəti simvolizə edirdi.



*AF 3085 Uzunluğu 63,5 sm, eni 5 sm, hündürlüyü 8,5 sm*

## BİMETAL QILINC

Yuxarıda göstərilən qılıncın (AF 27337) bütün xüsusiyyətləri bimetal qılınclarda da mövcud olmuşdur. Bu qılıncların maraqlı xüsusiyyəti onların iki metal növündən – tunc və dəmirdən olması ilə bağlıdır. Belə ki, dəmir tunca nisbətən daha iti və möhkəm olsa da, o dövrdə daha bahalı olmuşdur. Eyni zamanda dəmir korroziyaya daha çox uğrayırdı. Tunc isə daha ucuz, uzunömürlü, lakin tez kütləşən metal idi. Bu xüsusiyyətlərin nəzərə alınması nəticəsində tiyəsi dəmirdən, dəstək hissəsi isə tuncdan olan silahlar meydana gəldi.



*AF 27337 Uzunluğu 62 sm, eni 4,5 sm, hündürlüyü 10,5 sm.*

# ORTA ƏSRLƏR DÖVRÜ

Orta əsr abidələrində qazıntılar aparan arxeoloqların aşkar etdiyi silahlar əsasən müxtəlif yerlərdən pərakəndə şəkildə aşkar olunur. Belə silahların vahid kompleks şəklində olmaması tapıntıların təhlilini çətinləşdirir. Bununla belə, müxtəlif bölgələrdən aşkar olunmuş arxeoloji material müəyyən mülahizələr irəli sürmək üçün kifayət qədərdir. Bu silahlar müvafiq təsnifat sxemləri tətbiq olunmaqla hərb işinin inkişaf səviyyəsini müəyyən etmək imkanı verir.

## NİZƏ UCLUQLARI

Mingəçevir arxeoloji abidəsində aşkar edilmiş erkən orta əsr nizə ucluğu (AF 23584) dəmirdən düzəldilmişdir. Sapa taxılan sulğunc hissə qısadır, silahın ucuna doğru uzanaraq, pərin möhkəmləndirici oxu rolunu oynayır. Pərin iki qanadı enli yarpaqvari formadadır. Bu tip ucluğu olan nizələr həm piyada, həm də atlı döyüşçülər tərəfindən tətbiq edilə bilərdi.

Mingəçevir arxeoloji abidəsində aşkar edilmiş digər erkən orta əsr nizə ucluğu (AF 11717) yuxarıda təqdim olunan ucluqdan fərqlənir. Belə ki, sulğunc hissə pərə keçəndə pərin səthindən yuxarıda qalır və faktiki olaraq tilə çevrilərək silahın ucuna qədər davam edir. Pər formasına görə lansetvaridir. Belə ucluğu olan nizələri atlı döyüşçülər daha çox tətbiq edirdilər. Çünki belə nizə ilə vurulmuş taran zərbəsi istənilən yarağı deşməyə qadir idi.



*AF 23584 Uzunluğu 27,2 sm, eni 8 sm, sulğuncun diametri 2,7 sm*



*AF 11717 Uzunluğu 30,5 sm, eni 4 sm, sulğuncun diametri 2,3 sm*

Şamaxı rayonu Meysəri kəndində aşkar edilmiş dəmir nizə ucluğu (AF 24864) uzun döyüş hissəsi və sulğuncdan ibarətdir. Çiyinləri enli olan ucluğun mərkəzi hissəsi daralaraq uzanır. Ağızlara nisbətən ucluğun mərkəzi oxu daha qalındır.

Dəmirdən düzəldilməsinə baxmayaraq nisbətən yaxşı vəziyyətdə dövrümüzə qədər çatmış ikinci nizə ucluğu (AF 2328) ənənəvi orta əsr atlı nizəsinin xüsusiyyətlərinə malikdir. Ucu enli sulğunc, mərkəzində sulğuncun davamı olan qabartma ilə gücləndirilmiş dar uzunsov pər, qısa maili çiyinlər.





*AF 24864 Uzunluğu 23 sm, eni 3 sm, sulğuncunun diametri 1,5 sm*



*AF 2328 Uzunluğu 37,5 sm, eni 4,3 sm, sulğuncunun diametri 2,2 sm*

## DƏMİR XƏNCƏR VƏ ONUN TUNC QINI

Erkən orta əsrlərdə Azərbaycanda əsasən dəmir silahlar tətbiq edilsə də, müəyyən silah elementlərinin istehsalında bəzən tuncdan da istifadə olunurdu.

Mingəçevir arxeoloji abidəsində aşkar edilmiş xəncər öz qını ilə bərabər dövrümüzə qədər çatmışdır. Bu xəncərin uzunsov üçbucaq tiyəsi, qolları qopmuş efesi və dəstəyin bir hissəsi mövcuddur. Tiyə nazik tunc təbəqədən düzəldilmiş qına qoyulmuşdur. Formasına görə qın tiyəni təkrarlayır, lakin ondan azacıq genişdir.



*AF 1804 Uzunluğu 26,5 sm, eni 7,5 sm, hündürlüyü 2,3 sm*

## XƏNCƏR TİYƏSİ VƏ EFESİ

Şamaxı rayonu Meysəri kəndində aşkar edilmiş dəmir xəncər enli tiyə, ona bitişik mil (dəstəyin taxılması üçün) və dəstəyi tiyədən ayıran efesdən ibarətdir. Silah üzərində taxılma efesin qalması nadir hadisədir, çünki dəmir silahlarda bu hissə adətən daha tez korroziyaya uğrayırdı.



*AF 24866. Uzunluğu 19 sm, eni 6,5 sm, Hündürlüyü 1,9 sm*

## XƏNCƏR TİYƏSİ

Orta əsrlər dövründə də əyritiyəli xəncərlər istifadə edilirdi. Arxeoloji qazıntılar nəticəsində aşkar edilmiş əyritiyəli xəncərin dəmirdən düzəldilmiş qalın enli tiyəsi dövrümüzə qədər çatmışdır.



*AF 14831*
*Uzunluğu 23 sm, eni 6.0 sm*

## DƏMİR QILINC

Azərbaycan ərazisindəki erkən orta əsr abidələrində yerli istehsal ənənələrinə görə düzəldilən silahlarla bərabər müxtəlif mədəniyyətlərə məxsus silahlar da tapılmışdır. Onlar sırasında "Xalqların böyük köçü" dövrünə aid silahlar da mövcuddur. Belə silahlardan biri 1949-cu ildə Mingəçevir ərazisində arxeoloji qazıntılar zamanı Kür çayının sol sahilində tapılmış sarmat tipli qılıncdır. Belə ki, silahın uzun tiyəsi tədricən dəstəyə keçir. Dəstək isə enli halqa şəklində düzəldilmiş başlıqla tamamlanır. Erkən orta əsr soyuq silah nümunələrində halqa bərkitmək ənənəsi əsasən sarmat tayfa birliyinə daxil olan tayfalara xas olan element idi.



*AF 23609*
*Uzunluğu 57 sm, eni 5 sm, hündürlüyü 2 sm, dəstəyindəki halqanın diametri 6 sm*

## OX UCLUQLARI

Orta əsr Beyləqan şəhər yerində arxeoloji qazıntılar zamanı aşkar edilmiş ox ucluğu (AF 21755), ehtimal ki, zireh yarmaq, lövhəli yaraqları dəlmək üçün nəzərdə tutulmuşdur. Belə ki, qısa yoğun mili olan ucluğun pər hissəsi dördtillidir (yəni, ucluğun en kəsiyi kvadrat şəkillidir).

Orta əsr Beyləqan şəhər yerində arxeoloji qazıntılar zamanı aşkar edilən digər ox ucluğu (AF 24419) ən çox yayılmış formaya malikdir: ucluğun uzun mili, qanadlarının qurtaracaqları yana çıxan üçbucaq pəri mövcuddur. İstehsalı sadə olan belə ox ucluqları geniş yayılmışdır.



*AF 21755*
*Uzunluğu 6,4 sm, eni 1,2 sm*



*AF 24419 Uzunluğu 10 sm, eni 3,6 sm, hündürlüyü 1 sm*



## OXATANLARA MƏXSUS ÜZÜKLƏR

Arxeoloji qazıntılar zamanı Azərbaycan ərazisindən müxtəlif materiallardan düzəldilmiş oxatan üzükləri tapılmışdır. Ellipsvari formaya malik, hamar səthi olan həmin üzüklərin bir tərəfi uzunsovdur. Oxatan üzüyü baş barmağa taxdıqdan sonra onun uzunsov tərəfi ilə kirişi dartırdı. Üzüyün əsas təyinatı oxatan kirişi dartan və buraxan zaman baş barmağın zədələnməsinin qarşısının alınması idi.

Salyan rayonu ərazisindəki Qırxçıraq arxeoloji abidəsindən aşkar edilmiş oxatan üzüyü (AF 28248) sümükdən düzəldilmiş, səthi tamamilə hamardır. Üzüyün aşağı hissəsi qırıldığından natamam vəziyyətdədir.

Muzeyin Arxeologiya fondunda qorunan ikinci oxçu üzüyü (AF 3096) dövrümüzə qədər yaxşı vəziyyətdə çatmışdır. Mingəçevir qazıntılarından əldə edilmiş bu üzük ellipsvari formaya malik olub, bir tərəfi uzunsov, səthi isə hamardır.



*AF 28248 Hündürlüyü 0,5 sm, diametri 2,7 sm*



*AF 3096*
*Diametri 2,5 sm*

## YANDIRICI MƏRMİ (SAXSI QAB)

Şamaxı rayonu ərazisindəki Gülüstan qalasında qazıntılar aparılarkən XI-XII əsrlərə aid qeyri-adi formalı şar-konusvari qab aşkarlanmışdır. Qabın gövdəsinə nisbətən enli boğaz və üç ədəd "yalançı" boğaz bərkidilmişdir. XIII əsr hərb nəzəriyyəçisi Həsən ər-Rəmmahın miniatürlərinin birində təsvir edilən şar-konusvari qab Gülüstan qalasından tapılmış qabın sirrini açmağa imkan verir. Belə ki, burada da iri həcmli şar-konusvari qab, onun üzərində əsas və "köməkçi" boğazlar təsvir olunmuşdur. Həmin münüatürdəki qabın bütün boğazlarından damcıvari maye və ya alov püskürür. Ehtimal ki, bu tip qablar hərb işində yandırıcı mərmilər kimi tətbiq olunurdu.



*AF 1600*
*Hündürlüyü 21,5 sm, ağzının diametri 6 sm, oturacağının diametri 11 sm*

## SUMMARY
## ANCIENT AND MEDIEVAL WEAPONS OF AZERBAIJAN
## (based on the materials of the archeology fund of the National Museum of History of Azerbaijan)

The National History Museum of Azerbaijan is the largest research and educational center of the country, where the artefacts of the historical and cultural heritage of our people are being stored and studied. Out of the museum's more than 300,000 specimens of material culture, weapons occupy a noticeable place. These items of the battle craft were discovered both as a result of purposeful archaeological excavations, and as random findings. Archaeological expeditions organized by the Museum's scientific personnel were conducted in the 1920-1930s, the 1930-1950's, and the 1960-1980's of the XX century in Sheki, Gabala, Mingechevir and Gazakh regions and in the Caspian's water area.

The weapons discovered as a result of archaeological works organized by the Society for Survey and Study of Azerbaijan and the Institute of History and Archeology of ANAS are preserved in the Museum. It should be noted that most of the martial art items found in various regions of Azerbaijan belong to the period of late bronze and early iron.

In addition, the collection of the Museum contains weapon samples that obtained as a result of random findings in Dashkesan, Lankaran, Gazakh, Nakhchivan and other regions of Azerbaijan, as well as in the North Caucasus. In the manufacture of weapons there were used bronze, iron, bone and various kinds of rocks. For example, the spear kept in the exposition discovered in Mingechevir was made of clay.

As seen from the above, the represented weapons are divided into two categories: offensive weapons namely swords, daggers, knives, axes, fighting forks, maces, spears, arrowheads and darts and defensive ones helmets, chain armours and badges.

These artifacts give an idea of the craft and the artistic and aesthetic taste of the ancient society, as well as the opportunity to analyze social relations and mainly the state of military science of that period.

Thus, the samples of military weapons presented in this catalog can be considered as a product of the primary reconstruction of the subjects of the ancient military craft of Azerbaijan.

Photographing weapons samples, indicating their parameters, the material of manufacture, the production period will allow in the future to carry out their historical reconstruction, determine their role in the art of war, the history of handicraft and material culture of Azerbaijan.





## РЕЗЮМЕ
## ДРЕВНЕЕ И СРЕДНЕВЕКОВОЕ ОРУЖИЕ АЗЕРБАЙДЖАНА
## (на материалах фонда археологии Национального Музея Истории Азербайджана)

Национальный Музей Истории Азербайджана является крупнейшим научно-исследовательским и просветительским центром страны, в котором хранятся и изучаются предметы историко-культурного наследия нашего народа. Среди содержащихся в фондах музея более 300 тыс. образцов материальной культуры, оружие занимает заметное место. Эти предметы батального ремесла были обнаружены как в результате целенаправленных археологических раскопок, так и в качестве случайных находок. Археологические экспедиции, организованные научными сотрудниками Музея, проводились в 20-80 гг. XX в. в Шекинском, Габалинском регионах, Мингечевире, Газахском районе и в акватории Каспийского моря.

Оружие, обнаруженное в результате археологических работ, организованных в различные годы Обществом Обследования и Изучения Азербайджана и Институтом Истории и Археологии НАНА также было передано на хранение в музей. Следует отметить, что большинство выявленных предметов боевого искусства в различных региона Азербайджана, относятся к эпохе поздней бронзы и раннего железа.

Помимо этого, в коллекциях Музея находятся образцы оружия, полученные в результате случайных находок в Дашкесане, Лянкяране, Газахе, Нахчыване и других регионах Азербайджана, а также на Северном Кавказе. В изготовлении коллекционного оружия использовались бронза, железо, кость, различные породы камня. Но есть и исключения. Например, представленное в экспозиции копье, обнаруженное в Мингечевире, было изготовлено из глины.

Как видно из вышеизложенного, указанное вооружение делится на две категории: наступательное – мечи, кинжалы, ножи, секиры, боевые вилы, булавы, копья, наконечники стрел и дротиков и оборонительное – шлемы, кольчуги, бляхи.

Эти изделия дают представление о ремесле и художественно-эстетическом вкусе древнего общества, а также возможность проанализировать общественные отношения и преимущественно состояние военного дела того периода.

Таким образом, представленные в данной книге образцы военного оружия могут рассматриваться в качестве продукта первичной реконструкции предметов древнего военного ремесла Азербайджана.

Фотографирование образцов вооружений, указание их параметров, материала изготовления, периода производства позволит в будущем осуществить их историческую реконструкцию, определить их роль в военном искусстве, истории ремесла и материальной культуры Азербайджана.

# İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT


1. AMEA Milli Azərbaycan Tarixi Muzeyi Arxeologiya fondunun materialları: inv. № 3149, 4261, 23618, 27308, 27325.
2.Xəlilov C.Ə. Qərbi Azərbaycanın tunc dövrü və dəmir dövrünün əvvəllərinə aid arxeoloji abidələri. Bakı, 1959.
3. Əliyeva N., Quluzadə N., Məmmədov E. Davud bəy Şərifov. Bakı, 2016.
4.Əliyev Ə. Ə. Qədim Albanların Silahları. Bak, 2008.
5.Qazıyev S.M. Mingəçevirdən tapılmış bəzi silahlardan // Azərbaycanın Maddi Mədəniyyəti. Bakı, 1949.
6. MATM Arxeologiya fondunun 1-29 nömrəli inventar kitabları
7. MATM Arxeologiya fondunun materialı: (s/q 2166)
8.Xəlilli F. Arxeoloji materiallar Azərbaycan tarixinin öyrənilməsində mənbə kimi (Milli Azərbaycan Tarixi Muzeyinin materiallari əsasinda). Bakı, 2017.
9.Vəlixanlı N. Azərbaycan Tarixi Muzeyi-80 // Azərbaycan Tarixi Muzeyi-80, Bakı, 2001.
10.Vəlixanlı N. Tarixi yaddaşımızın, mədəni irsimizin qoruyucusu// Milli Azərbaycan Tarixi Muzeyi-90. Bakı, 2010.
11.Асланов Г.М. Каменные орудия из Мингечаура // Материальная культура Азербайджана. Баку, 1953.
12.Джафарова Д.Х. Исследование оружия Карабахской группы Ходжалы-Кедабекской культуры // Azərbaycan Arxeologiyası. № 1-2, Bakı, 2008.
13.Джафарова Э. К проблеме реконструкции клинкового оружия // Azərbaycan Arxeologiyası. № 3-4, Bakı, 2007.
14.Ионе Г.И. Мингечаурская разновидность наконечников стрел «скифского» типа Мингечаура // Материальная культура Азербайджана. Баку, 1953.
15.Мамедов Э.В. Оружие из античных могил Самуниса (Мингечаура) (на основе коллекции национального музея истории Азербайджана) // Milli Azərbaycan Tarixi Muzeyi. Bakı, 2014.
16.Османов Ф.Л. Бронзовый шлем, найденный в Ахсуинском районе Азербайджана. Доклады академии наук Азербайджанской ССР, т. XXVIII, № 1, 1972.
17.Соловьев А.И. О некоторых характеристиках клинового оружия // Проблемы реконструкции в археологии. Новосибирск, 1985.
18.Сомов А. Реставрация // Брокгауз Ф.А., Ефрон И.А. Энциклопедический словарь. Т.53, 1899.
19.Сурхай М. Мечи и кинжалы из раскопок Узун-тепе (коллекция археологического фонда музея истории Азербайджана) // Azərbaycan Tarixi Muzeyi – 80. Bakı, 2001.




# KİTABIN İZAHLI LÜĞƏTİ

**E**fes - qılınc və xəncərlərin dəstəyi ilə tiyəsi arasında ayırıcı və qoruyucu funksiyasını daşıyan çıxıntı. Çıxıntı həmin aralıqda tiyəyə perpendikulyar vəziyyətdə tökmə və ya qoyma şəklində olur.

**P**ər - ox və nizə ucluqlarında kənarlara doğru enlənən, uzunsov nazik lövhəşəkilli çıxıntı. Nizə ucluqlarında pərlərin kənarları daha iti olur ki, bu da zərbə zamanı onun kəsmə qüvvəsini bir qədər də artırır.

**S**ulğunc - əksər nizə ucluqlarında və döyüş yabalarında ağac mil (sap) keçirilən boruşəkilli hissə. Həmin hissənin aşağı tərəfi enli olub, yuxarıya doğru daralır. Üzərində ucluğu milə bərkitmək üçün bəzən bir və ya iki mismar dəliyi olur.

**M**il - ox və bəzi nizə ucluqlarında, eləcə də xəncər və qılınc tiyələrində ucu şişvari çıxıntı. Mil ucluğun ağac sapa, tiyənin isə dəstəyə taxılmasına xidmət edir.

**T**il - ox və nizə ucluqlarında, eləcə də bəzi xəncərlərdə tiyənin mərkəzi ilə hər iki tərəfdən uzununa qabarıq zolaq, çıxıntı. Til pərləri və tiyəni gücləndirməklə onun dayanıqlığını artırır.

**L**anset - iynəşəkilli və ya ucu iynə kimi şiş olan metal cərrahi alət.

| | |
|---|---|
| Mətbəənin direktoru: | Fuad HÜSEYNOV |
| Texniki redaktor: | Azər RƏSULOV |
| Dizayner: | Əhməd ƏHMƏDOV |
| Kompüter yığımı: | Təranə RƏHİMOVA |
| Cildçi: | Gövhər NURULLAYEVA |
| Çapçı: | Oqtay YUSİFOV |

Kitab "AFPoliqrAF" mətbəəsində çap olunmuşdur

Tel.: +994(12) 510 96 74 | afpoliqraf@mail.ru
Mob.: +994(50) 405 96 74 | afpoliqraf@gmail.com

Yığılmağa verilmişdir: 20.07.2018
Çapa imzalanmışdır: 20.09.2018
Qarnitura: Tahoma
Şərti çap vərəqi: 2
Formatı: 70x100 $^1/_{16}$
Tiraj 300

